# AZƏRBAYCAN RESPUBLİKASI

# SƏHİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI

# QƏRAR

57

21 0ktyabr 2015-ci

**“Aptek təşkilatlarından dərman vasitələrinin buraxılması Qaydaları”nın təsdiq edilməsi barədə”**

“Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanın 2.2-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. “Aptek təşkilatlarından dərman vasitələrinin buraxılması Qaydaları” təsdiq edilsin (1 nömrəli əlavə).

2. “Resept blankı forması” və “Ödənişsiz resept blankı forması” təsdiq edilsin (2 və 3 nömrəli əlavələr).

3. Respublikanın tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın ki, bu əmrlə təsdiq edilmiş qaydalara və formalara riayət edilməsi təmin edilsin.

4. Hüquq və daxili nəzarət sektorunun müdiri vəzifəsini icra edən E.Əzizova tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

5. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 21.12.2009-cu il tarixli 172 nömrəli əmri ləğv edilsin.

6. Qərarın icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Oqtay Şirəliyev**

Kollegiyanın məsul katibi Nərgiz Şahbazova